*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin 2005-ci il 23*
*dekabr tarixli,*
*238 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

# Bütün növ radiovericilərin və digər radiotezlikli qurğuların yaratdığı radiomaneələrin qarşısının alınması

# Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli, 277 nömrəli Fərmanının 1.7-ci bəndinə əsasən hazırlanmışdır və bütün növ radiovericilərin və digər radiotezlikli qurğuların yaratdığı radiomaneələrin qarşısının alınması qaydasını müəyyən edir.

1.2. Bu Qayda Azərbaycan Respublikasının ərazisində mövcud qanunvericiliyə uyğun istifadə edilən bütün növ radiorabitə və radioyayım vasitələrinə aid edilməklə, müvafiq qaydada dövlət qeydiyyatından keçmiş texniki vasitələr—sənaye təyinatlı radiomaneə yaradan qurğular və ya istismarda olan digər qanuni radioelektron vasitələri tərəfindən yaradılan maneələr haqqında müraciətlərə əsasən radiomaneə mənbələrinin axtarışı, yerinin təyin olunması, təhlil edilməsi və aradan qaldırılması üzrə aparılan işlərin nəticələrinin sənədləşdirilməsini müəyyən edir.

1.3. Respublikanın ərazisində istifadə olunan radioelektron vasitələrinin işinə maneələrin yaranması ilə əlaqədar müraciətlər (bundan sonra—müraciətlər) fiziki və hüquqi şəxslər tərəfindən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Dövlət Radiotezliklər İdarəsinə (bundan sonra—Dövlət Radiotezliklər İdarəsi) təqdim olunur. Həmin müraciətlərə əsasən radioqəbula maneələrin aradan qaldırılması məqsədi ilə müvafiq təşkilati texniki tədbirlərin həyata keçirilməsi Dövlət Radiotezliklər İdarəsi tərəfindən mütləq qaydada yerinə yetirilir.

1.4. Radiomaneənin müəyyən edilməsi və aradan qaldırılması üzrə görülmüş tədbirlərin nəticələri haqqında müraciət edən hüquqi və ya fiziki şəxsə Dövlət Radiotezliklər İdarəsi tərəfindən qanunvericilikdə nəzərdə tutulan müddət ərzində məlumat verilir.

## 2. Müraciətlərin təqdim olunması

2.1. Daxil olan müraciətlərin qeydiyyatı onlar üçün tərtib olunmuş jurnalda aparılır. Müraciətlər daxil olduğu gün qeydiyyata alınır.

2.2. Müraciətlərdə maneənin təsir müddəti, ərazi, maneə təsirinə məruz qalan avadanlıq və ya şəbəkə haqqında məlumatlar, maneənin ehtimal olunan istiqaməti və xarakteri bildirilməlidir.

## *3. Müraciətlərə baxılması*

3.1. Xüsusi təyinatlı telekommunikasiya şəbəkələri və ümumi istifadəli radiorabitə şəbəkələrinə təsir edən maneələr barədə müraciətlərə təxirəsalınmadan, digər müraciətlərə isə aşağıdakı müddətlərdə müvafiq qaydada baxılır:

- radiomaneə mənbəyinin axtarışı tələb olunmadığı halda—3 gündən gec olmayaraq;
- radiomaneə mənbəyinin axtarışı tələb olunduğu halda—7 gündən gec olmayaraq.

3.2. Radiomaneə mənbəyinin axtarışının çətin şəraitdə aparılması tələb olunduqda, radiomaneə mənbəyi respublikadan kənarda müəyyənləşdirildikdə və ya əvvəlcədən nəzərə alınmayan texniki problemlər əmələ gəldikdə, axtarış müddəti 30 günə qədər artırıla bilər. Bütün bu hallarda müraciət edənə, radioelektron vasitəsinin mülkiyyətçisinə, yaxud digər qanuni əsaslarla istifadə edən şəxsə rəsmi və ətraflı məlumat verilir.

3.3. Maneə mənbəyinin aşkarlanması ilə əlaqədar müraciətlərə baxılması müraciət edənin nümayəndələrinin iştirakı ilə aparılır.

3.4. Müraciətlər üzrə işlər aparılarkən aşağıdakı tələblərə əməl olunur:

3.4.1. qəbulda pozuntunun səbəbi kimi qəbuledicidə və ya anten-fider sistemində aşkarlanmış nasazlıq müəyyən edildiyi təqdirdə, müraciət edənə kənar maneənin olmaması və avadanlıqda müvafiq təmir-nizamlama işlərinin aparılmasının zəruriliyi haqqında məlumat verilir;

3.4.2. müraciət edənin anten-fider və ya qəbuledici qurğularında nasazlıq müəyyən edildiyi və yaxınlıqdakı digər radioqəbuledicilərdə maneə qaldığı halda maneə mənbəyinin aşkarlanması üzrə işlər davam etdirilir, eyni zamanda müraciət edənə istismar olunan nasaz qurğularda yoxlama, tənzimləmə və təmir işlərinin aparılmasının vacibliyi haqqında bildiriş (xəbərdarlıq) verilir. Maneənin aradan qaldırılması üçün zəruri tədbirlərin həyata keçirilməsi Dövlət Radiotezliklər İdarəsi tərəfindən təmin edilir;

3.4.3. müraciətdə qeyd olunan maneə göstərilən ünvanda müəyyən edilmədiyi zaman qonşu şəbəkələrdəki qəbuledicilərdə maneənin olub-olmaması faktı aşağıdakı hallarda araşdırılır:

- əgər radioqəbulda maneələr aşkarlanmırsa, bu halda müraciət edənə maneələrin olmaması haqqında rəsmi məlumat verilir, ona istismar etdiyi qəbuledici və ya anten-fider qurğularını yoxlamaq tövsiyə olunur;
- əgər radioqəbulda maneələr aşkarlanırsa, bu halda radiomaneə mənbəyi tapılır, maneə aradan qaldırılır və müraciət edənə məlumat verilir;

3.4.4. müraciət edənlə əvvəlcədən müəyyənləşdirilmiş vaxtda aparılan araşdırma zamanı onun şəbəkəsində radiomaneə aşkar edilmirsə, bu halda şəbəkə 1 saat müddətində yerində nəzarətə götürülür, bu müddət ərzində maneə aşkarlanmadığı halda işlər dayandırılır və müraciət edənə məlumat verilir;

3.4.5. periodik xarakter daşımayan qısamüddətli radiomaneə aşkar edildikdə (radiomaneənin axtarışını mümkünsüz edən müddət), maneəyə məruz qalan

radiotezlik efir nəzarətinə götürülür. Müraciət edənə tam izahlı rəsmi məlumat verilir və ona radioqəbula daha uzunmüddətli maneə əmələ gəldiyi halda dərhal xəbər verməsi tövsiyə olunur.

## *4. Radiomaneənin araşdırılması və aradan qaldırılması*

4.1. Radiomaneə yaradan şüalanma mənbəyi qeyri-qanuni fəaliyyət göstərirsə, Dövlət Radiotezliklər İdarəsi tərəfindən tədbirlər görülür. Əgər radiomaneə yaradan şüalanma mənbəyi qanuni fəaliyyət göstərirsə, maneə yaradan faktorun aradan qaldırılmasını təmin etmək məqsədi ilə birgə araşdırma aparılır və müvafiq tədbir görülməsi haqqında qərar qəbul edilir. Əgər radiomaneə mənbəyi respublikadan kənarda aşkar olunarsa, Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələri və qonşu ölkələrlə ikitərəfli sazişlər əsasında maneələrin aradan qaldırılması üçün Dövlət Radiotezliklər İdarəsi tərəfindən tədbirlər görülür.

4.2. Aşkarlanmış radiomaneə mənbəyini aradan qaldırarkən, Dövlət Radiotezliklər İdarəsi aşağıdakıları əsas götürür:

4.2.1. radioqəbula maneə yaradan texniki qurğu—radiomaneə mənbəyi hüquqi şəxsə məxsusdursa, insanların sağlamlığı və mühafizəsinə xidmət edirsə və onun işinin dayandırılması yolverilməzdirsə, bu halda qurğunun sahibinə öz vasitələri ilə maneənin ən azı bir saat müddətində aradan qaldırılmasının zəruriliyi haqda Dövlət Radiotezliklər İdarəsi tərəfindən rəsmi bildiriş verilir. Bildirişin 2-ci nüsxəsi müşayiətedici məktubla nəzarət üçün həmin şəxsin yuxarı təşkilatına göndərilir. Şəxsin yuxarı təşkilatı olmadığı halda, bildirişin 2-ci nüsxəsi həmin şəxsin fəaliyyətinə icazə vermiş müvafiq icra orqanına göndərilir.

Bu halda müraciət edənə görülmüş tədbirlər (verilmiş bildiriş) haqqında malumat verilir və radiomaneənin təsirinin qalıb-qalmaması haqda Dövlət Radiotezliklər İdarəsinin məlumatlandırılması tələb olunur;

4.2.2. hüquqi şəxs tərəfindən göstərişin tələbləri müəyyən olunmuş vaxt ərzində yerinə yetirilmədiyi təqdirdə, Dövlət Radiotezliklər İdarəsi tərəfindən təkrar olaraq maneənin aradan qaldırılmasının zəruriliyi haqqında bildiriş verilir və radiomaneə mənbəyinin işinin dayandırılması tələb olunur;

4.2.3. radioqəbula maneələr aradan qaldırıldıqdan sonra maneə yaradan texniki qurğunun—radiomaneə mənbəyinin işinin bərpası müvafiq icazə əsasında və bilavasitə Dövlət Radiotezliklər İdarəsinin nəzarəti ilə yerinə yetirilə bilər;

4.2.4. radiomaneə mənbəyi fiziki şəxsə məxsusdursa, Dövlət Radiotezliklər İdarəsi tərəfindən qurğunun sahibinə maneə mənbəyinin işinin dayandırılması, qurğunun təmir edilməsi və ya dəyişdirilməsi tövsiyə olunur.

4.3. Aşkarlanmış radiomaneə mənbəyində, radiomaneənin yaranma səbəbləri araşdırılmalı və araşdırmanın nəticəsinə uyğun olaraq, Dövlət Radiotezliklər İdarəsi tərəfindən qurğunun sahibinə müvafiq göstərişlər verilməlidir.

4.4. Aşkarlanmış radioqəbula maneə yaradan texniki qurğunun—mövcud qanunvericiliyə uyğun işləməməsi, radiomaneə mənbəyinin müvafiq Dövlət sertifikatının olmaması və ya həmin qurğunun müvafiq standartlara uyğun olmaması müəyyənləşdirildiyi təqdirdə,

onun işinin dayandırılması tələb olunur və qurğunun sahibinə qarşı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tədbirlər həyata keçirilir.

4.5. Dövlət orqanlarında xüsusi təyinatlı telekommunikasiya şəbəkələri bir-birinə radiomaneə yaradarsa, maneələrin aradan qaldırılması həmin strukturların rabitə xidmətləri tərəfindən yerinə yetirilir. Əgər zərurət olarsa, həmin işlərin yerinə yetirilməsinə Dövlət Radiotezliklər İdarəsi tərəfindən müvafiq köməklik göstərilir.

4.6. Radioqəbula maneələr yüksəkmərtəbəli tikililər (binalar) tərəfindən yaradılırsa, müraciət edənə bu haqda məlumat verilir və eyni zamanda tikili (bina) sahibinin nəzərinə çatdırılır. Bu halda müraciət edənə qəbuledicinin yerinin dəyişdirilməsi və ya onun maneə yaradan binaların damında quraşdırılması barədə tövsiyə verilir.

---

*© VneshExpertService LLC*